# Azərbaycan:
## Şəhid İnqilab Rəhbərinin bəyənatlarında

**Azərbaycan Araşdırma Mərkəzi**



***“Bu mövzularla maraqlanan və qayğı göstərən insanlar olarsa, onların vəziyyəti yaxşı olacaq; əks halda, əgər yol göstərən olmazsa, bəşər bir azğınlıqdan digər bir azğınlığa keçəcək.”***

***01/01/1992***

بسم الله الرحمن الرحیم

# Şəhid İmam Xameneinin Azərbaycan Respublikasının müsəlmanları ilə bağlı bəyanatlar silsiləsi

# Mündəricat

Önsöz ........................................................................ 5
Əgər düzgün istiqamətləndirilsələr... ........................................ 7
Çox ağıllı proqram ........................................................ 7
İslam atəşi söndürülə bilməz.............................................. 9
Dərin fəaliyyət ............................................................. 10
Onları Sovet İttifaqına qalib gətirən məhz İslam idi................. 10
İslam hökumətinin üfüqü ...................................................11
İslam Respublikasına çevrilmək potensialı............................... 12
Müsəlmanlar özləri güclənməlidirlər...................................... 13
Əmmamə sahiblərinin rolu ................................................. 13
Azərbaycan xalqının İslam dünyasının Ümmül-Qurasından gözləntiləri ............................................................... 14

# Önsöz

Şəhid İmam Xamenei strateji düşüncəyə, uzaqgörən baxışa və dərin tarixi təhlil qabiliyyətinə malik bir şəxsiyyət idi. O, hər bir xalqın və bölgənin tarixi, mədəni, dini və ictimai xüsusiyyətlərini nəzərə alaraq, onlar üçün xüsusi yanaşma və fəaliyyət proqramı irəli sürürdü. Onun baxışları yalnız cari problemlərin həllinə deyil, həm də gələcəyin qurulmasına və sivilizasiya perspektivinə hesablanmışdı.

Təəssüf ki, bu strateji baxışlarla kifayət qədər tanış olmamağımız uzun illər İslamı daha çox fərdi və məhdud çərçivədə dərk etməyimizə səbəb olub. Halbuki İslam təkcə fərdin islahı deyil, həm də cəmiyyətin, mədəniyyətin və dövlətin inkişafı üçün geniş və sistemli proqram təqdim edir. Dəqiq, vahid və ağıllı fəaliyyət proqramının olmaması bizi ali hədəflərə doğru məqsədyönlü hərəkətdən uzaq salıb, enerjimizi isə bəzən pərakəndə və nəticəsiz fəaliyyətlərə sərf etməyə məcbur edib. Xüsusilə Sovet İttifaqının dağılmasından sonra yaranan ideoloji boşluq və kimlik böhranının vaxtında düzgün qiymətləndirilməməsi cəmiyyətimiz üçün ciddi itkilərə səbəb olub. Bu dövr yeni bir intellektual və mənəvi dirçəliş üçün tarixi fürsət idi, lakin vahid strateji proqramın olmaması həmin fürsətin tam dəyərləndirilməsinə imkan vermədi. Həmin dövrdə Şəhid İmam Xameneinin bu mövzuda irəli sürdüyü fikir və tövsiyələr əsas götürülərək vahid, ağıllı və uzunmüddətli proqram hazırlanmış olsaydı, bu gün qarşılaşdığımız problemlərin əhəmiyyətli hissəsinin qarşısını almaq və ya

onları daha asan həll etmək mümkün olardı. Çünki düzgün strategiya yalnız mövcud problemləri həll etmir, həm də gələcək böhranların yaranmasının qarşısını alır.

Bu topluda Şəhid İmam Xameneinin Azərbaycan Respublikası haqqında müxtəlif dövrlərdə səsləndirdiyi fikir və yanaşmalar bir araya gətirilmişdir. Bu baxışlarla tanış olmaq təkcə tarixi maraq daşımır, onlar gələcək fəaliyyət üçün yol xəritəsi, strateji istiqamət və düşüncə məktəbi kimi dəyərləndirilməlidir. Əgər gələcək üçün möhkəm, ardıcıl və məqsədyönlü fəaliyyət proqramı qurmaq, təhrif olmuş kimliyimizi islah etmək istəyiriksə, onu məhz bu strateji baxışlar əsasında formalaşdırmalıyıq. Yalnız bu halda fəaliyyətimiz təsadüfi deyil, məqsədli olacaq, gündəlik hadisələrin təsiri altında istiqamətini itirməyəcək və bizi ali hədəflərə doğru ardıcıl şəkildə irəlilədə biləcək.

**Orxan Məmmədov**

## Əgər düzgün istiqamətləndirilsələr...

Keçmiş Sovet Sosialist Respublikaları İttifaqı kimi bir ölkənin aqibəti böyük bir ibrət və möhtəşəm bir dərsdir. Uzun illər ərzində insanları ağır təzyiq altında saxladılar; elə güman edirdilər ki, dini xalqın qəlbindən tamamilə silmiş və kökündən təmizləmişlər; elə hesab edirdilər ki, dini insanların həyatından tamamilə uzaqlaşdırmışlar. Halbuki təzyiq nə qədər çox olarsa, partlayışa hazırlıq da bir o qədər çox olar! Bu gün kommunist partiyasının görünməz sədləri və gizli buxovları xalqın boynundan götürüldükdən sonra, baxın görün keçmiş Sovet İttifaqının xalqları nə edirlər. Onlar öz fitrətlərinin tələb etdiyi şeylərə üz tuturlar. Əlbəttə, bu mövzularla maraqlanan və qayğı göstərən insanlar olarsa, onların vəziyyəti yaxşı olacaq; əks halda, əgər yol göstərən olmazsa, bəşər bir azğınlıqdan digər bir azğınlığa keçəcək. ***01/01/1992***

## Çox ağıllı proqram

Hazırda Azərbaycanda son dərəcə ağıllı və uzaqgörən proqramlar hazırlanmalıdır. Mən bəzi düşüncələrlə razı deyiləm. Elə təsəvvür edənlər var ki, guya keçmiş Sovet İttifaqına birləşdirilmiş Azərbaycan haqqında fəaliyyət göstərmək istəsək, ilk növbədə gedib onlara dinin ibtidai hökmlərini öyrətməliyik və ya sinəvurma mərasimləri və bu kimi ayinlər təşkil etməliyik. Çünki onlar, hətta «Həmd» və «Surə»ni də bilmirlər. Məsələ əsla belə deyildir. Yetmiş il ərzində marksizm ideologiyasının zahirdə çox cazibədar və parlaq görünən düsturlarının

qamçısı bu insanların başı üzərində olmuşdur. Yetmiş il boyunca kommunistlərin son dərəcə təsirli və güclü təbliğat aparatı onları fasiləsiz şəkildə ideoloji təbliğatın atəşinə tutmuşdur.

Kommunistlər iki sahədə olduqca güclü idilər. Bunlardan biri təşkilatlanma idi. Bu, kommunistlər arasında ənənəvi bir xüsusiyyət sayılırdı və insaf naminə demək lazımdır ki, həmin illər ərzində təşkilatlanma sahəsində onların bənzəri yox idi. Onlar öz partiyalarını çox yaxşı şəkildə təşkil edirdilər. Digər üstün cəhət isə təbliğat idi. Onların təbliğat sistemi dünya miqyasında nümunə sayılırdılar. Baxmayaraq ki, imkanları Qərb dövlətlərinin malik olduğu imkanlardan daha məhdud idi, buna rəğmən, bir çox hallarda Qərbin təbliğatını üstələməyi bacarırdılar. Elə öz təbliğatlarının gücü ilə Afrika, Latın Amerikası, eləcə də Yaxın Şərq və Fələstin məsələsində Qərb dövlətlərini ciddi şəkildə çətin vəziyyətə salmışdılar. Məhz bu təbliğat yetmiş il ərzində bu bölgənin küçə və bazar adamlarının, yaşlısının da, cavanının da başı üzərində hakim olmuşdur. İndi isə dinin və dini duyğunun möcüzəsinə baxın ki, bütün bu təbliğatlardan sonra belə necə yenidən baş qaldırır.

Bu gün din uğrunda fəryad edənlərin çoxu bu məntəqənin dini dövrünü ümumiyyətlə görməyiblər; onlar məhz dinsizlik və ateizm dövründə dünyaya gəliblər və həmin təbliğat daim onların üzərində olub.

Məqsəd budur ki, deyilən hər şey səliqəli, təmizlənmiş, möhkəm, dəqiq, ölçülüb-biçilmiş və nizamlı sözlərlə ifadə olunmalıdır. ***26/02/1992***

## İslam atəşi söndürülə bilməz

Bilsinlər ki, bu gün dünya İslama doğru hərəkət edir; bu, sadəcə bir şüar deyil, həqiqətdir. Bu gün görürsünüz ki, məhz Sovet İttifaqına bağlı olmuş Azərbaycan bölgəsindəki qardaşlarımız necə böyük İslami maraq və bağlılıq nümayiş etdirirlər. Əgər kimsə düşünsə və ya iddia etsə ki, bu hərəkatların motivasiyası milli və etnik hisslərdir, çox böyük səhvə yol verər. Bu hisslər İslami hisslərdir. Sovet İttifaqının rəhbərləri də reallığı dərk edərək bu məsələyə diqqət yetirməlidirlər ki, bu hisslər İslami hisslərdir və buna görə də bir milyard müsəlman üçün cazibədardır.

Məbada, bu hisslərə yanlış və səriştəsiz yanaşılsın. Sovet rəhbərliyi köhnə üsullara yenidən baxmaqla təqdirəlayiq şücaət göstərdi və xalqlar bu gün öz əqidələrini, inanclarını, daxili ruhani, qəlbi və iman dünyalarını ifadə edə bilirlər. Yetmiş ildən artıq İslamdan uzaq saxlanılmış bu müsəlman qardaşlarımız yenidən İslama yönəlib, öz İslami hisslərini nümayiş etdirirlər. Biz də bu İslami hisslərin qədrini bilir və ona hörmət edirik. Məbada, Sovet rəhbərləri yanlış təhlillə bu İslami hisslərə qarşı sərt və səhv münasibət göstərməsinlər.

Bu, İslamdır. İslam sönüb aradan qalxan bir şey deyil. İslam təcavüzkar və zalım da deyil. İslam ədalət və insafı əmr edir və dünyanın hər yerində İslam cəmiyyəti ədalət və insafa aşiqdir. Dünyanın hər yerində müsəlmanlarla münasibət qurmağın yolu ədalət və insafdır. Bu, İslamın böyük hədəfidir. ***16/01/1989***

## Dərin fəaliyyət

Əgər siz keçmiş Sovet İttifaqının müsəlman ölkələrinə nəzər salsanız, görərsiniz ki, bu ölkələrdə səksən il ərzində daim dinə qarşı mübarizə aparılıb, amma onlar Sovet kommunist hakimiyyətinin əsarətindən çıxdıqda təbii olaraq hamısı İslama yönəldilər. Əlbəttə, bundan sonra İslamı təbliğ edənlərin və çağırışçıların fəaliyyət göstərə bilməsi, göstərə bilməməsi, necə fəaliyyət göstərməsi və ya hansı dərinlikdə işləməsi isə başqa bir məsələdir. ***15/02/2001***

## Onları Sovet İttifaqına qalib gətirən məhz İslam idi.

Bu inqilabın yaratdığı İslami kimlik və dirçəliş hissinin bərəkəti ilə bu gün dünyanın bir çox ölkələrində İslami qruplar mövcuddur, güclüdürlər və özləri üçün gələcəyə sahibdirlər. Əgər onlara imkan versələr, ehtimal ki, hətta dövlət də qura bilərlər. Bu qruplar İslamın müxaliflərini və düşmənlərini təhdid edirlər; Çünki onlar Amerikanı və İslam düşmənlərini özlərinə düşmən sayırlar. Bu məsələ ən çox qlobal istibdadı (hegemonluğu) qəzəbləndirən amildir. ***09/02/1996***

## İslam hökumətinin üfüqü

İslam düşmənləri əvvəlcə açıq şəkildə İslama qarşı olduqlarını söyləməkdən çəkinirdilər. Deyirdilər: ***“Biz İslamla razıyıq, amma İslami radikallığa qarşıyıq.”*** Sonra İslam ötən onillikdə irəliləyiş əldə etdikdə və onun nümunələri Afrikada, Əlcəzairdə, Sudanda, Şimali Afrika ölkələrində, Asiyada, Mərkəzi Asiyada və Sovet İttifaqından ayrılmış respublikalarda müşahidə edildikdə, xülasə olaraq İslamın yenidən dirçəliş əldə etdiyi məlum oldu. İslam düşmənləri gördülər ki, artıq mövqelərini açıq şəkildə bildirməkdən başqa çarələri yoxdur. Gördülər ki, artıq əvvəlki kimi İslama düşmənçilik etdiklərini gizlədə bilməzlər. Buna görə də bu gün açıq şəkildə İslama qarşı olduqlarını deyirlər. Hazırda keçmiş Sovet respublikalarından olan Mərkəzi Asiya respublikalarında xalqın inanc və İslami əməlləri şəklində üzə çıxan yalnız İslamdır və amerikalılar çaşqın vəziyyətə düşüblər. Bu respublikalarda bizim üsulumuzla İslam Respublikası sisteminin yaranması üçün hər hansı hərəkat və ya qiyam da yox idi. Sadəcə olaraq, həmin ölkələrdə İslam yenidən dirçəlmişdi. Amerikalılar təşvişə düşdülər, öz qüvvələrini və vasitələrini səfərbər etdilər, özlərinə yaxın hökumətləri də məcbur etdilər ki, *“İranın bu ölkələrdə irəliləməsinə imkan verməyin!”*

Bu İslam bu gün müsəlman ölkə və xalqları arasında yenidən dirçəlmişdir. İslamın dayağı olan İslam Respublikasında düşmən bacardığı qədər təxribat törədəcək. Bu ölkəni və bu xalqı İslami məqsədlərdən uzaqlaşdırmaq üçün bacardığı bütün səyləri göstərəcək ki,

digər xalqlar İslam yolunu seçməyə təşviq olunmasınlar. Bu gün İslam Avropada, Afrikada, Asiyada və bütün dünyada xüsusi şəkildə özünü göstərir. Müsəlmanlar yenidən həyat hissi keçirirlər və bu, istibdadı, xüsusilə də ABŞ rejimini ciddi şəkildə qorxudur. Buna görə də onlar İslamla mübarizə aparmaq istəyirlər. ***30/03/1992***

## İslam Respublikasına çevrilmək potensialı

Müsəlmanlar bu nümunədən (İslam Respublikasından) təcrübə əldə etməlidirlər. Bu gün öz ölkələrində İslami hərəkatı həyata keçirmək istəyən xalqlar İran xalqından daha əhatəli işlər görə və bunu reallığa çevirə bilərlər; əgər Allah yardım etsə və ***onlar da səy göstərsələr.*** Müsəlmanların İslama qayıtmaqdan başqa yolu yoxdur; İslam hakimiyyətini qurmaqdan, İslamın həyata keçirilməsini və gerçəkləşməsini təmin etməkdən başqa yolları yoxdur.

Bunlar müsəlmandırlar. Niyə bir xalqa hörmətsizlik edirsiniz və deyirsiniz ki, ***"İran İslamı bunların ağzına salıb"!?*** Müsəlman xalqlar kiminsə İslamı onların ağzına salmasını gözləmirlər. Bunun bir nümunəsi elə bizim şimalımızdakı, keçmiş Sovet İttifaqına bağlı olmuş ölkələrdir. Onilliklər boyu son dərəcə sərt şəkildə dinə qarşı mübarizə aparıldıqdan sonra gördünüz ki, insanlar heç kim onlara demədən, heç kim onlara dərs vermədən özləri ayağa qalxdılar, yüksək səslə İslamdan danışmağa başladılar. Hər yerdə vəziyyət belədir. Xalqlar İslamı istəyirlər; xalqlar İslamı tanıyıblar. ***02/02/1992***

## Müsəlmanlar özləri güclənməlidirlər

Diqqət edin, dünyanın harasında müsəlman bir toplum varsa, bir tərəfdən öz İslami kimliyini hiss edir, digər tərəfdən isə başqalarına nisbətən daha ağır təzyiqlərlə üzləşir. Dünənin nümunəsi Sovet Azərbaycanı və digər bəzi bölgələr idi. Bugünün nümunəsi isə Kəşmirdir. Oradakı müsəlmanlar öz haqlı sözlərini söyləyirlər. Onları susdurmağa çalışanlar haqsız danışırlar. Onlara hücum edənlər haqsız əməl törədirlər. Təəssüf ki, dünya da bütün bu hadisələrə soyuqqanlılıqla yanaşır. Əgər müsəlmanlar İslamı müdafiə etmək istəyirlərsə, ilk növbədə özləri güclənməlidirlər. ***25/05/1990***

## Əmmamə sahiblərinin rolu

Bu əmmamələrin və əmmamə sahiblərinin rolu keçmişlə müqayisədə qat-qat artıqdır. Mən qətiyyətlə bildirirəm ki, bizim din alimlərimiz və ruhani təbəqəmiz, təxminən min və ya min yüz ildən bəri din alimi adlandırılan şəxslərin mövcud olduğu bütün bu tarix boyunca heç vaxt bugünkü qədər mühüm və həlledici bir rol daşımamışdır. Bu gün şiə ruhaniyyəti belə bir mövqedədir; həm İranda vəziyyət belədir, həm də İslami hərəkatın üzə çıxdığı bütün dünyada. Əgər vəziyyət belə olsa, hərəkatlar öz nəticəsinə çatacaq; əgər belə olmasa, çatmayacaq. Buna görə də Əfqanıstanda, Livanda, Azərbaycanda, Kəşmirdə və müsəlmanların bir hərəkat başlatdığı bir çox başqa bölgələrdə bu hərəkatların dayağı və əsas sütunu din alimlərdir. Əgər din alimləri həmin hərəkatın içərisində olsalar, qələbəyə ümid vardır; əks halda isə ya həmin

hərəkat qələbə qazanmayacaq, ya da öz yolundan sapacaq. Ruhaniyyətin rolu məhz bundan ibarətdir. ***13/03/1990***

## Azərbaycan xalqının İslam dünyasının Ümmül-Qurasından gözləntiləri

Xülasə, milyonlarla müsəlman əhali mövcuddur ki, dünənə qədər kommunizmin hakimiyyəti altında idilər və belə ölkələr mövcud deyildi; amma bu gün artıq mövcuddurlar. Dünyadakı dəyişikliklərin sürətinə baxın!

Onlar deyirlər: "***Biz altmış, yetmiş il kommunizmin hakimiyyəti altında yaşadıq. Kommunizm öz ideologiyasının bütün sahələri üzrə kitablar, risalələr, məqalələr, broşürlər, filmlər və pyeslər hazırlamışdı; iqtisadiyyat haqqında, tarix haqqında, fəlsəfə haqqında və ümumiyyətlə kommunizmdə mövcud olan hər cür anlayış və mövzu barədə geniş materiallar təqdim etmişdi. Hazırda biz müsəlmanıq və yenidən İslama qayıtmışıq. Siz ki, öz ifadənizlə, "İslamın ümmul-qura"sınız, gəlin bizə kitab verin.***"

Siz onlara nə verəcəksiniz? Onlara vermək üçün nəyi tərcümə edəcəksiniz? Yenə də deməli oluruq: Şəhid Mürtəza Mütəhhərinin (Allah ona rəhmət etsin) əsərlərini. Əlbəttə, həqiqətən də, bu böyük şəxsiyyətin yazdığı əsərlər ən yaxşı əsərlər sırasındadır. Aydın, məntiqli, başlanğıcı və sonu olan, güclü və dəyərli əsərlərdir. Amma yaxşı, bəs nə vaxta qədər? Yeni kitablar istehsal etməli deyilikmi? Müxtəlif şərait və ehtiyaclara uyğun

olaraq müxtəlif əsərlər ortaya qoyulmalı deyilmi? Beləliklə, təbliğ sahəsi bunları da əhatə edir. ***17/09/1992***